# "Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli 2407 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli 2407 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 46 (Cild I) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci-onuncu abzaslar müvafiq olaraq üçüncü-on birinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Muxtar Babayev - Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi".

2. Dördüncü abzas ləğv edilsin.

3. Altıncı abzasdan "Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyinin sədri," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***

***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2025-ci il*

---

Azərbaycan.- 2025.- 13 avqust (№168).- S.2.